Deloitte.

# Azərbaycanda Biznes Perspektivləri

**Deloitte Azərbaycan**
**2022-ci ilin nəticələri,**
**yeddinci nəşr**



MAKING AN IMPACT THAT MATTERS since 1845

# Mündəricat


| | |
|---|---|
| Giriş | 02 |
| Ümumi nəticələr | 03 |
| Azərbaycan rəqəmlərlə | 05 |
| İnsan Kapitalı trendləri | 19 |
| Biznes gözləntilərinə dair sorğu | 38 |
| Əlaqələr | 45 |

# Giriş



**Nuran Kərimov**
**İdarəedici Partnyor**
Deloitte Azərbaycan

Deloitte Azərbaycanın illik makroiqtisadi jurnalı olan Azərbaycanda Biznes Perspektivlərin yeddinci nəşrini təqdim etməkdən məmnunluq duyuruq. Bu nəşr çərçivəsində biz Azərbaycan iqtisadiyyatının üstünlük təşkil edən tendensiyalarını və çağırışlarını müəyyən etməyə imkan verən əsas makroiqtisadi göstəriciləri təhlil etmişik.

2023-cü ilin fevral-may ayları ərzində Deloitte aparıcı Azərbaycan şirkətləri arasında biznes gözləntilərinə dair geniş sorğu keçirmişdir. Cavablardan əldə edilən fikirlər Azərbaycanın biznes mühitini formalaşdıran iqtisadi qüvvələri, o cümlədən əsas hərəkətverici qüvvələri, çağırışları və inkişaf mexanizmlərini aşkarlamağa imkan yaratmaqla yanaşı, həm də milli iqtisadiyyatdakı tendensiyaların müqayisəli təhlilini aparmağı asanlaşdırdı.

Bundan əlavə, Deloitte Azərbaycan ölkədə formalaşmaqda olan insan resursları tendensiyalarını öyrənmək məqsədilə bir çox sənayə sahələri üzrə liderləri "İnsan Kapitalı Trendləri" sorğusuna cəlb etmişdir. İnsan kapitalının inkişaf edən mənzərəsini tədqiq etməklə biz Azərbaycanda işçi qüvvəsinin hazırkı vəziyyətini və perspektivlərini işıqlandırmaq niyyətindəyik.

İnanırıq ki, jurnalın bu nəşrində təqdim olunan fikirlər və təhlillər ölkənin iqtisadi mənzərəsinin dərk edilməsinə əhəmiyyətli töhfə və bizneslər üçün dəyərli təlimat verəcək.

# Ümumi nəticələr

## Azərbaycan rəqəmlərlə

**Ümumi Daxili Məhsul**
AZN **133.8** mlrd

**Xarici Ticarət**
Xarici ticarət saldosu: ABŞ dolları **23.6** mlrd
İdxal: ABŞ dolları **14.5** mlrd
İxrac: ABŞ dolları **38.1** mlrd

**Neft və Qaz qiymətləri**
Neftin qiyməti: ABŞ dolları **99.8**
Avropa İttifaqı Qazın qiyməti: ABŞ dolları **40**

**Manatın ABŞ Dolları və Avroya qarşı məzənnəsi**
$ **1.7** € **1.8**

**Xarici valyuta ehtiyatları**
ABŞ dolları **9** mlrd

**Nominal orta aylıq əmək haqqı**
AZN **839.4**

**Büdcə gəlirləri**
AZN **30.7** mlrd

# 2021 və 2022-ci illər üzrə göstəricilərin müqayisəsi



# 01 Azərbaycan Rəqəmlərlə



# Əsas makroiqtisadi göstəricilər

## Ümumi Daxili Məhsul (ÜDM)




Mənbə: Faktiki məlumatlar – Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Azərbaycan Respublikasının Mərkəzi Bankı.

*Proqnoz –Economist Intelligence Unit (bundan sonra EIU adlandırılacaq), Beynəlxalq Valyuta Fondu (BVF).

### Ümumi daxili məhsulun structuru, faizlə

| Sektorlar | 2021 | 2022 |
|---|---|---|
| **Sənaye** | 42,5 | 51,1 |
| **Ticarət və nəqliyyat vasitələrinin təmiri** | 10,1 | 8,2 |
| **Nəqliyyat və anbar təsərrüfatı** | 6,9 | 6 |
| **Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq** | 5,9 | 4,8 |
| **Tikinti** | 5,9 | 4,8 |
| **İnformasiya və rabitə** | 1,8 | 1,4 |
| **Turistlərin yerləşdirilməsi və ictimai iaşə** | 1,3 | 1,6 |
| **Məhsula və idxala xalis vergilər** | 8,4 | 7,4 |
| **Sosial və digər sahələr** | 17,2 | 14,7 |

"Bu gün Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, heç kimdən iqtisadi və siyasi cəhətdən asılı deyil. Əgər bu ilin iqtisadi göstəricilərinə nəzər salsaq görərik ki, postpandemiya dövrü üçün nəticələr qənaətbəxşdir. İqtisadiyyat təxminən 5% artıb, qeyri-neft sektoru isə 9%-dən çox artıb. Bununla bərabər, bizim ümumi daxili məhsulumuz bu il rekord həddə - 130 milyard manata çatıb. Bu, tarixi nailiyyətdir."

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

# Əsas makroiqtisadi göstəricilər

**Real ÜDM-un bölmələr üzrə artımı**




2022-ci il üçün ÜDM 133.8 milyard AZN, 2021-ci illə müqayisədə 4.6% artım təşkil etmişdir. Qeyri-neft-qaz sektorunun ÜDM-da payı 9.1% artmış, neft-qaz sektorunun payı isə 2.7% azalmışdır.

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.

"2022-ci ilin ən mühüm məqamı ondan ibarətdir ki, neft və qaz qiymətlərinin müsbət dinamikasının çox yüksək səviyyəsinə baxmayaraq, dövlət büdcəsinin gəlirlərinin 50%-i qeyri-neft-qaz sektoru hesabına formalaşıb."

**Mikayıl Cabbarov**
**İqtisadiyyat Naziri**



# Əsas makroiqtisadi göstəricilər

**Brent markalı neftin qiymәti ilә bağlı proqnoz, ABŞ dolları/barel ilә**

| | 2021 | 2022 | 2023* | 2024* | 2025* |
|---|---|---|---|---|---|
| **EIU** | 70,4 | 99,8 | 86,6 | 83,7 | 79,7 |
| **Dünya Bankı** | 70,4 | 100 | 92 | 80 | |

*Proqnoz

EIU-nun məlumatına görə, 2023-cü ildə neft qiymətinin orta hesabla 86.6 ABŞ dolları/barel olacağı proqnozlaşdırılır. Azərbaycanın karbohidrogenlərinə tələbat yüksək olaraq qalacaq, beləliklə, ölkədə makroiqtisadi sabitlik və iqtisadi artım qorunacaq.

"Dünyada neftə tələbat 2023-cü ildə 2% artaraq gündəlik 101.6 milyon barelə çatacaq və pandemiya dövründən öncəki səviyyədən artıq olacaq. Sanksiya siyasətinə görə, gələn il üçün neft təklifi tələbatı ödəyəcəyi gözlənilmir. "

**Beynəlxalq Enerji Agentliyi**

**Təbii qazın qiyməti ilə bağlı proqnoz, ABŞ dolları/mmbtu ilə**

| | 2021 | 2022 | 2023* | 2024* |
|---|---|---|---|---|
| **Henry HUB** | | | | |
| **EIU** | 3,85 | 6,37 | 4,99 | 3,77 |
| **Dünya Bankı** | 3,9 | 6,6 | 6,2 | 6 |
| **Avropa** | | | | |
| **EIU** | 16,12 | 40,34 | 23,51 | 14,4 |
| **Dünya Bankı** | 16,1 | 40 | 32 | 28 |

*Proqnoz

"İlin ortasında Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində strateji tərəfdaşlığa dair memorandum imzalanmışdır. Artıq bu memorandum icra edilir, Azərbaycan dünya bazarlarına öz təbii qazının ixracatını artırır."

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

bp Azəri Mərkəzi Şərqi (ACE) platformasının dayaq bloku Xəzər dənizində AÇG müqavilə sahəsindəki daimi yerinə yola salınmaq üçün hazır olduğunu bildirib. Bu qurğuya biri suvurma, biri neft ixracı və biri də qaz ixracı üçün nəzərdə tutulmuş üç hasilat dik borusu daxildir.

ACE platforması və qurğuları gündəlik 100,000 barelədək neft hasilatı gücündə layihələndirilib. Layihənin istismar müddəti ərzində 300 milyon barelədək neftin hasil olunması proqnozlaşdırılır.

**bp**

# Əsas makroiqtisadi göstəricilər

## Azərbaycanın kredit reytinqi - 2021

| Agentlik | Reytinq | Proqnoz | Tarix |
|---|---|---|---|
| **Fitch** | BB+ | Stabil | 14 may 2021 |
| **S&P** | BB+ | Stabil | 22 yanvar 2021 |
| **Moody's** | BA2 | Pozitiv | 6 aprel 2021 |

## Azərbaycanın kredit reytinqi - 2022

| Agentlik | Reytinq | Proqnoz | Tarix |
|---|---|---|---|
| **Fitch** | BB+ | Pozitiv | 21 oktyabr 2022 |
| **S&P** | BB+ | Stabil | 22 yanvar 2022 |
| **Moody's** | BA1 | Stabil | 5 avgust 2022 |

Mənbə: EIU, Dünya Bankı, Trading Economies.

**"Fitch"** kredit reytinqi 2022-ci ildə eyni səviyyədə qalıb. Lakin, proqnozu **"Stabil"**dən **"Pozitiv"**ə dəyişib. **"Moody's"** kredit reytinqi əvvəlki ilə nisbətən **"BA2"**dən **"BA1"**ə yüksəlib və **"Stabil"** olacağı proqnozlaşdırılır.



### Xarici Ticarət Balansı




Mənbə: Faktiki məlumatlar- Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi.
*Proqnoz - EIU

"Neftin qiymətinin artması səbəbindən 2023-cü ildə ixrac gəlirlərinin artacağı, beləliklə, artan inflyasiyanın mənfi təsirinin yumşalması və xarici borclanma səviyyəsinin azalması gözlənilir."

**EIU**

2022-ci il üçün Azərbaycanın illik ixracı 38.147 milyard ABŞ dolları, idxalı isə 14.540 milyard ABŞ dolları təşkil edib. Əvvəlki illə müqayisədə ixrac 59.6%, idxal isə 24.2% artıb. Nəticədə xarici ticarət balansında 23.607 milyard ABŞ dolları məbləğində müsbət saldo yaranıb ki, bu da əvvəlki illə müqayisədə 2.2 dəfə çoxdur.

# Əsas makroiqtisadi göstəricilər

**İdxal olunan malların strukturu, milyard ABŞ dolları ilə**




**İxrac olunan malların strukturu, milyard ABŞ dolları ilə**




Mənbə: Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi.

Maşın və elektrik avadanlıqları ümumi idxalın 20%-ni təşkil edib. Əvvəlki illə müqayisədə 4% azalmasına baxmayaraq bu mallar yenə də idxalın ən böyük payını təşkil edib. Kənd təsərrüfatı məhsulları idxalda maşın və elektrik avadanlıqlarından sonra ikinci yerdədir.

İxrac olunmuş malların ən böyük hissəsini neft və neft məhsulları (93%) təşkil edir, kənd təsərrüfatı məhsulları isə 2.7% ilə ikinci yeri tutur.

## Bağçılıq məhsullarının istehsalı və ixracı əvvəlki illərə nisbətən artıb və ölkə bu sahədə bir neçə məhsulun istehsalı və ixracı üzrə dünyada ilk sıraları tutur. Daha dəqiq olsaq, Azərbaycan xurma ixracına görə dünyada ikinci, fındıq ixracına görə isə üçüncü yerdədir.

2022-ci il üçün karbamid qızıl (185.2 mln ABŞ dolları) və pambığın (173.5 mln ABŞ dolları) ixracını üstələyib və 209.7 milyon ABŞ dolları təşkil edib. 2021-ci illə müqayisədə pomidorun ixracı 7 milyon dollar artıb.

**2022-ci ildə ixrac edilən əsas qeyri-neft məhsullarının siyahısı**




Mənbə: Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi.

# Əsas makroiqtisadi göstəricilər

**2022-ci ildə qeyri-neft sektoru üzrə beş əsas ixrac istiqaməti**






Mənbə: Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi.

Əvvəlki hesabat ilində olduğu kimi, Rusiya 928.6 milyon ABŞ dolları məbləğlə 2022-ci ildə də Azərbaycanın qeyri-neft ixracı üzrə əsas istiqaməti olaraq qalır. Artan tendensiya Türkiyə, Gürcüstan və Qazaxıstanda da izlənilir.

**İdxalın xarici valyuta ehtiyatları ilə təminatı**




Mənbə: Faktiki məlumatlar – Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Mərkəzi Bankı
*Proqnoz – EIU.

İdxalın xarici valyuta ehtiyatları ilə təminat səviyyəsi 2021-ci ildən 2022-ci ilə qədər 7 ayda dəyişməz qalıb. Buna səbəb 2022-ci ildə xarici valyuta ehtiyatlarının 7.1 milyard ABŞ dollarından 9 milyard ABŞ dollarına, ümumi idxalın isə 11.7 milyard ABŞ dollarından 14.5 milyard ABŞ dollarına yüksəlməsi olub.

> "Biz xarici valyuta ehtiyatlarının artımını qeydə almışıq. 2022-ci ilin sonunda Mərkəzi Bankın xarici valyuta ehtiyatları əvvəlki ilə nisbətən 27.1% artaraq 8.995 milyard ABŞ dollarına çatıb."

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**

# Əsas makroiqtisadi göstəricilər

**Orta illik istehlak qiymətləri indeksi**




Mənbə: Faktiki məlumatlar –Azərbaycan Respublikasının Mərkəzi Bankı
*Proqnoz – EIU.

2022-ci il üzrə istehlak qiymətləri indeksi əvvəlki ilə nisbətən artaraq 13.9%, o cümlədən ərzaq və məhsulları, içkilər və tütün məmulatları üzrə 19.5%, qeyri-ərzaq məhsulları üzrə 8.6%, əhaliyə göstərilmiş pullu xidmətlər üzrə 10.4% təşkil etmişdir.

"Dünya əmtəə qiymətlərinin aşağı düşməsi nəticəsində 2023-cü ildə istehlak qiymətləri inflyasiyasının 8%-ə bərabər olacağı proqnozlaşdırılır. İnflyasiyanın təsirinin azaldılması üçün əlavə tədbirlərdən biri dövlət tənzimlənməsi, xidmətlər və qeyri-ərzaq məhsullarına qiymət təzyiqləridir. Beləliklə, 2024-2027-ci illəri əhatə edən qarşıdakı dövr üçün inflyasiyanın səviyyəsi 4.4% qiymətləndirilir."

**EIU**



# Əsas makroiqtisadi göstəricilər

**Orta aylıq nominal əmək haqqı**




Mənbə: Faktiki məlumatlar- Azərbaycan Respublikasının Mərkəzi Bankı.
*Proqnoz – EIU

2022-ci ilin məlumatlarına görə, orta aylıq nominal əməkhaqqı əvvəlki illə müqayisədə 14.7% artaraq 839.4 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, elmi və texniki fəaliyyət, o cümlədən informasiya və rabitə sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.



Dövlət başçısının fərmanına əsasən, 2023-cü il yanvarın 1-dən minimum aylıq əməkhaqqı 15% artırılaraq 300 manatdan 345 manata, minimum pensiyanın məbləği isə 16.7% artırılaraq 240 manatdan 280 manata çatıb.

# Əsas makroiqtisadi göstəricilər




**İşsizlik dərəcəsi**




Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.
*Proqnoz – EIU

"Bölgələrdə ictimai işlərə cəlb edilən vətəndaşların sayında artımlar müşahidə olunur. Digər tərəfdən özünüməşğulluq proqramının genişləndirilməsi və bu proqram çərçivəsində işsiz vətəndaşların aktivlərlə təmin edilməsi işsizlik səviyyəsinə təsir göstərib."

**Vüqar Bayramov**
**Milli Məclisin üzvü**

# Əsas makroiqtisadi göstəricilər

### AZN-in Avro və ABŞ dollarına qarşı məzənnəsi




"2017-ci ilin aprelindən manat 1.7 səviyyəsində sabit qalıb. 2023-2027-ci illər üçün proqnoz valyutanın eyni məzənnədə qalacağıdır."

**EIU**

Mənbə: Faktiki məlumat – Azərbaycan Respublikasının Mərkəzi Bankı.
*Proqnoz – EIU.

### Uçot faiz dərəcəsi və Dövlət qısamüddətli istiqrazları (DQİ) üzrə gəlirlik




2021-ci ilin sentyabr ayından uçot faizi artmağa başlayıb və 2022-ci ilin dekabr ayında ən yüksək nöqtəyə 8.25 faizə çatıb.

Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı.



# Əsas makroiqtisadi göstəricilər

**Dövlət Büdcəsi (faktiki)**






Mənbə: Azərbaycan Respublikasının Maliyyə Nazirliyi.

Maliyyə Nazirliyinin məlumatına əsasən, 2022-ci il dövlət büdcəsinin faktiki gəlirləri 30660.5 milyon manat təşkil edib ki, bu da proqnozlaşdırılandan 1462.7 milyon manat çoxdur. Əvvəlki illə müqayisədə 16.2% artım müşahidə olunur.

**Büdcə gəlir mənbələri (faktiki)**




Mənbə: Azərbaycan Respublikasının Maliyyə Nazirliyi.

# Əsas makroiqtisadi göstəricilər

**Gömrük rüsumlarının statistikası**




Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı.

İdxal olunan malların ümumi dəyərinin artmasına baxmayaraq, orta çəkili tarif dərəcəsi 2018-ci ildən bəri ilk dəfə azalıb. Daha dəqiq desək, 2021-ci illə müqayisədə 2022-ci ildə orta çəkili tarif dərəcəsi 0.31% azalaraq 5.74%-ə çatıb.



# Əsas makroiqtisadi göstəricilər

**Birbaşa İnvestisiya**




Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı.

Azərbaycan iqtisadiyyatına cəlb olunmuş birbaşa xarici investisiyalar ötən ilə nisbətən 30.9% artaraq, 6.3 milyard ABŞ dollara çatıb. Birbaşa xarici investisiyalar 28% Birləşmiş Krallığının, 18.9% Türkiyənin, 13.2% Kiprin, 8.3% Rusiyanın və qalanı İranın, Yaponiyanın, ABŞ-ın, İsveçrənin, Norveçin və Macarıstanın payına düşüb.

> "Ölkə iqtisadiyyatına yatırılmış birbaşa xarici investisiyaların məbləği 6.3 milyard ABŞ dolları olmuşdur və strukturunda neft-qaz sektorunun xüsusi çəkisi 71% təşkil etmişdir. Xaricə yatırılmış birbaşa xarici investisiyaların həcmi isə 0.2 milyard ABŞ dolları olmuşdur."

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**

**Bankların kredit portfelinin strukturu**




Mənbə: Faktiki məlumat – Azərbaycan Respublikasının Mərkəzi Bankı.

> "2022-ci il ərzində bank sektorunun kredit aktivliyi artmışdır. Bankların kredit portfeli il ərzində 17.6% (2.9 milyard manat) artaraq 19.6 milyard manat təşkil etmişdir."

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**

# 02 İnsan Kapitalı trendləri



# İnsan Kapitalı trendləri sorğusu

### Sorğu iştirakçıların əsas vəzifələri




**Nəticələrin təsviri:** Cavabların əksəriyyəti İnsan Resursları Menecerlərindən/İR departamentinin rəhbərlərindən (51.6%), İR Direktorlardan/ Departament Rəhbərlərindən (32.3%) alınıb.

### Sorğu iştirakçıların müəssisədə işçi sayı




**Nəticələrin təsviri:** Sorğu iştirakçıların əksəriyyəti orta və iri müəssisələri (80.6%), qalanları isə kiçik biznesi (19.4%) təmsil edir.

### Sorğu iştirakçıların fəaliyyət göstərdiyi əsas sektorlar




**Nəticələrin təsviri:** Nəqliyyat və Logistika xidmətləri sektoru sorğu iştirakçıların ən çox hissəsini, yani 29%-ini təşkil edir. Ikinci yeri isə 19.4% ilə Texnologiya, Media və Telekommunikasiya tutur.



# İnsan Kapitalı trendləri sorğusu

### Son illərdə təşkilatınızın məqsədi necə dəyişdi?






**Nəticələrin təsviri:** Sorğu iştirakçıların əksəriyyəti (71%) hesab edir ki, müəssisələrinin məqsədi genişlənir və xidmət etdikləri bütün maraqlı tərəfləri və icmaları əhatə edir. Sorğu iştirakçılarının yalnız 9.7% isə təşkilatlarının məqsədinin dəyişməz olduğunu və diqqəti səhmdarlara yönəltdiyini bildirib.

**Tendensiyalar:** Deloitte-un 2023 Qlobal İnsan Kapitalı Trendləri sorğusuna əsasən, təşkilati dəyişiklikləri həyata keçirən təşkilatların müsbət nəticələr əldə etmə ehtimalı daha yüksəkdir.

### Şirkətiniz İR idarəetmə strukturunu nə dərəcədə tətbiq edib?




**Nəticələrin təsviri:** Bütün sorğu iştirakçılarının yalnız 3.2%-i İR idarəetmə strukturunun mövcud olmadığını bildirmişdir.



# İnsan Kapitalı trendləri sorğusu

### Təşkilatınızda İR-nin etibarlılığı nə qədər yüksəkdir?

| | |
|---|---|
| Çox yüksək: İR rəhbərləri ümumilikdə müəssisədə rəhbər vəzifələri əldə etmək üzrə güclü namizədlər hesab olunur; Biznes rəhbərləri İR-ın təcrübəsi və iştirakı olmadan əsas qərarlar qəbul etmir. | 38,7% |
| Qənaətbəxş: İR şöbəsinin İR funksional sahələrində ekspert olaraq nüfuzu yüksəkdir. | 38,7% |
| Orta: İR müəssisədə müəyyən etibara malikdir və bəzi İR sahələrində texniki bacarıqlar nümayiş etdirə bildiyi düşünülür. | 19,4% |
| Zəif: Müəssisəmizdə İR-ın nüfuzu zəifdir və o yalnız "Əməliyyat şöbəsi" / "İnzibati funksiya" kimi qəbul olunur. | 3,2% |

**Nəticələrin təsviri:**
Şirkətlərin dörddə üçü İR liderlərinin təcrübələrini funksional sahələrdə kifayət qədər və ya çox yüksək etibara malik olduğunu bildirir.

Ümumiyyətlə, çox yüksək və kifayət qədər etibarlılığı olan cavabların əksəriyyəti Nəqliyyat və Logistika sektorundan gəlir.



### İR rəhbərliyi müəssisənin biznes strategiyasında nə dərəcədə iştirak edir?

| | |
|---|---|
| Yüksək səviyyədə iştirak: İR rəhbərliyimiz təşkilati strategiyanın hazırlanmasında fəal iştirak edir və müəssisənin ümumi strategiyasının formalaşdırılmasına və icra olunmasına təsir edir. | 29,0% |
| Kifayət qədər iştirak: İR rəhbərliyimiz təşkilati strategiyanın formalaşdırılmasına dəstək olur və icrasında fəal iştirak edir. | 48,4% |
| Orta dərəcədə iştirak: İR rəhbərliyimiz təşkilati strategiyanın icra edilməsi üzrə planlarının həyata keçirilməsində dəstək olur. | 16,1% |
| İştirak etmir: İR rəhbərliyimiz müəssisənin strategiyasının formalaşmasında və ya təşkilati planlaşdırmada iştirak etmir. | 6,5% |

**Nəticələrin təsviri:** Müəssisələrin 22,6 faizində İR rəhbərliyi biznes strategiyasında orta səviyyədə iştirak edir və ya heç iştirak etmir. İR-nin orta səviyyədə iştirak etdiyi və yaxud heç iştirak etmədiyi müəssisələrin əksəriyyəti Dövlət və Hökümət, Texnologiya, Media və Telekommunikasiya sektorlarına aiddir və orta ölçülü təşkilatları təmsil edir.

# İnsan Kapitalı trendləri sorğusu

**İR fəaliyyətinə aid əsas və strateji proseslərin ("key HR services") icrası üçün İR komandası nə dərəcədə hazırlıqlıdır?**




**Nəticələrin təsviri:** Sorğu iştirakçıların beşdə biri hesab edir ki, İR komandası əsas və strateji proseslərin həyata keçirilməsinə zəif hazırlıqlı və yaxud hazırlıqlı deyil. Əsas və strateji prosesləri həyata keçirmək üçün İR komandalarının qeyri-kafi hazırlığı Texnologiya, Media və Telekommunikasiya sektorunda geniş şəkildə müşahidə olunur.

**İR müəssisənin namizədlər hovuzunu/bazasını ("candidate pool") necə idarə edir ?**




**Nəticələrin təsviri:** Sorğu iştirakçılarının əksəriyyəti (54,8%) İR-nın sosial media istifadəsində çox aktiv olduğunu düşünür. Namizəd hovuzlarının idarə edilməsində çox fəal olan sorğu iştirakçılarının təxminən yarısı təşkilatlarında qabaqcıl və ya yüksək səviyyəli işə qəbul prosesinə malikdirlər.

**Tendensiyalar:** Deloitte-un 2023-cü il Qlobal İnsan Kapitalı Trendlərtinə əsasən şirkətlər tam ştatlı işçilərə üstünlük verən və digər hər kəsə "başqası" kimi yanaşan ənənəvi, dar "işçi qüvvəsi" tərifinə sadiq qalmaq əvəzinə,  öz düşüncə tərzini və təcrübələrini real dünyadakı daha mürəkkəb və getdikcə yüksək strateji əhəmiyyət kəsb edən bacarıq və təcrübəyə malik olan qeyri-ənənəvi işçilərdən ibarət namizədlər hovuzuna uyğunlaşdırmaq üçün dəyişdirməlidirlər.

# İnsan Kapitalı trendləri sorğusu

**İstedadların idarə edilməsi, işəqəbul və seçilmə prosesi müəssisənizdə nə dərəcədə inkişaf etmişdir?**




**Nəticələrin təsviri:** Sorğu iştirakçılarının 25.8%-I təşkilatlarında istedadların idarə edilməsi prosesinin inkişaf etmiş olduğunu, 35.5%-i isə yüksək dərəcədə inkişaf etmiş olduğunu düşünür.

**İR şöbəsi insan resurslarının cəlb edilməsində və saxlanılmasında nə dərəcədə effektivdir?**




**Nəticələrin təsviri:** Sorğu iştirakçılarının yalnız 6.5%-i İR-nın təsirsiz olduğunu və təşkilat daxilində istedadları saxlamaqda çətinlik çəkdiyini bildirir.

# İnsan Kapitalı trendləri sorğusu

**Fəaliyyətin idarə edilməsi ("Performance Management") müəssisədə nə dərəcədə formalaşmışdır və tətbiq edilir?**




**Nəticələrin təsviri:** Sorğu iştirakçıların üçdə biri hesab edir ki, təşkilatlarında performansın idarəedilməsi həyata keçirilsə də, bu aydın şəkildə müşahidə olunmur. Pərakəndə xidmətlər və Texnologiya, Media və Telekommunikasiya sektorlarının əksəriyyəti zəif və ya qeyri-rəsmi Performans İdarəetmə strategiyalarına malik olduqlarını bildirdilər.

**Ümumi mükafatlandırma ("Total reward") strategiyası istedadların idarə edilməsi ilə nə dərəcədə uyğunlaşdırılmışdır? Müəssisə üzrə ümumi mükafatlandırma necə qiymətləndirilir?**




**Nəticələrin təsviri:** Sorğu iştirakçıların 12.9%-i hesab edir ki, ümumi mükafatlandırma strategiyası istedadların əldə edilməsi, inkişafı və saxlanılması ilə uyğun gəlmir. Ümumi mükafatlandırma strategiyasının istedadların əldə edilməsi ilə uyğun olmadığını düşünən sorğu iştirakçılarının ən yüksək nisbəti yalnız nisbətən inkişaf etmiş işə qəbul prosesinə malikdir.

# İnsan Kapitalı trendləri sorğusu

**İşçiləriniz ödəniş strukturunun formalaşdırılmasında nə dərəcədə iştirak edir və ya onların fikirləri qərar qəbuletmədə nə dərəcədə nəzərə alınır?**




**Nəticələrin təsviri:** Sorğu iştirakçıların 41.9%-i bildirir ki, İR kompensasiyanın necə qurulduğunu müəyyən etməkdə orta səviyyədə iştirak edir və qərar qəbulu zamanı onların fikirləri nəzərə alınır.



**Aşağıdakı ifadələrdən hansı mükafatlandırma, imtiyazlar və bacarıqların inkişafı arasındakı əlaqə ilə bağlı müəssisənizin rəhbərliyinin baxışlarını daha yaxşı əks etdirir?**




- Mükafat, imtiyazlar və bacarıqların inkişaf etdirilməsi bütövlükdə qiymətləndirilir və dəyərləndirilir.
- Mükafat, imtiyazlar və bacarıqların inkişaf etdirilməsi ayrıca və müstəqil şəkildə qiymətləndirilir və dəyərləndirilir.
- Müəssisəmizə şamil olunmur.

**Nəticələrin təsviri:** Sorğu iştirakçıların 45.2%-i mükafat, imtiyazlar və bacarıqların inkişafının ayrılıqda və müstəqil şəkildə qiymətləndirildiyini və dəyərləndirildiyini bildirir, bu cavabların əksəriyyəti Nəqliyyat və Logistika, Texnologiya, Media və Telekommunikasiya sektorlarından alınıb. Bununla yanaşı, sorğu iştirakçıların 48.4%-i mükafat, imtiyazlar və bacarıqların inkişafının bütövlükdə qiymətləndirildiyini və dəyərləndirildiyini bildirir, bu cavablar Pərakəndə xidmətlərdən, Dövlət və Hökümət sektorlarından alınıb.

# İnsan Kapitalı trendləri sorğusu

**Müəssisənizdə "biliyin idarə olunması" ("Knowledge management") necə təyin olunur?**




**Nəticələrin təsviri:** Sorğu iştirakçılarının 35.5%-ə görə biliyin idarəedilməsi biliyin yaradılması: yeni xidmətlər, həllər, məhsullar və proseslərin inkişafı olaraq təyin olunur. Bu cür düşünən iştirakçıların çoxu Nəqliyyat və Logistika sektorunun nümayəndələridir.

**İR ümumilikdə müəssisə üzrə Təlim və İnkişafı müəyyən edib prioritetləşdirir?**




**Nəticələrin təsviri:** Sorğu iştirakçıların 61.3%-i hesab edir ki, İR bütövlükdə təşkilat üzrə Təlim və İnkişaf prosesini kifayət qədər təyin edir və prioritetləşdirir. Təlim və İnkişafa kifayət qədər üstünlük verən sorğu iştirakçıların əksəriyyəti İR-nın etibarlılığını çox yüksək səviyyədə qiymətləndirən müəssisələrdir.

# İnsan Kapitalı trendləri sorğusu

**Müəssisənizdə rəhbərlər öz işçilərinin bacarıq və səriştələrini inkişaf etdirmək üçün mükafatlandırılırmı?**




**Nəticələrin təsviri:** Rəhbər işçilərin 51.6%-i komandalarının bacarıq və qabiliyyətlərini inkişaf etdirdiklərinə görə mükafatlandırılmırlar. Mükafatlandırıldıqlarını söyləyən rəhbərlərin əksəriyyəti isə Neft, Qaz və Enerji, Nəqliyyat və Logistika sektorlarındadır.

**İR əsas biznes qərarlarının qəbul edilməsi ilə əlaqədar hesabatlar nə dərəcədə hazırlayır və təhlil edir?**




**Nəticələrin təsviri:** Sorğu iştirakçılarının təxminən yarısı bildirir ki, onların İR hesabatları əhəmiyyətli şəkildə avtomatlaşdırılıb və idarəetmə qərarlarının verilməsi üçün analitik fikirləri əks etdirir.



# İnsan Kapitalı trendləri sorğusu



**Əsas prioritetlər və funksiyaları təkmilləşdirmək üçün İR texnologiya və sistemlərdən nə dərəcədə istifadə edir?**

| | |
|---|---|
| Yüksək texnoloji inteqrasiya: Biz tam funksional, inteqrasiya olunmuş, demək olar ki, kağızsız İR texnologiyası mühitinə malikik və texnologiyamıza istənilən yerdən mobil funksiyalarla daxil olmaq mümkündür. | 12,9% |
| Qənaətbəxş texnoloji inteqrasiya: İR texnologiya platformamız müəssisənin əsas prioritetlərini dəstəkləyir və insan resursların seçilməsi və ya Fəaliyyətin idarə edilməsi kimi funksiyaları özündə birləşdirərək müəssisə və işçilərlə bağlı məlumatlar baxımından çox üstündür. | 38,7% |
| Orta texnoloji inteqrasiya: sas iş prosesinə malik güclü İR idarəetmə (HRMS) sistemimiz mövcuddur, lakin əksər proseslərin dəstəklənməsi üçün kağızla iş hələ də tələb olunur. | 29,0% |
| Zəif texnoloji inteqrasiya: İnsan resursların idarə edilməsi üçün texnologiyaya malik olsaq da, müəssisəmizin tələblərinə tam olaraq cavab vermədiyindən onun bütün funksiyalarından istifadə etmirik. | 19,4% |

**Nəticələrin təsviri:** Sorğu iştirakçılarının 38.7%-i bildirir ki İR əsas prioritetləri və funksiyaları təkmilləşdirmək üçün texnologiya və sistemlərdən kifayət qədər istifadə edir, və onların əksəriyyəti 1000-dən çox işçisi olan biznesləri təmsil edir.

**Tendensiyalar:** Deloitte-un 2023 Qlobal İnsan Kapitalı Trendlərinə əsasən, liderlərin yalnız 16%-i performans və komanda effektivliyini artırmaq üçün texnologiya və sistemlərdən istifadə etməyə hazırdır.

**Davamlı təkmilləşdirmə proseslərinin idarə edilməsi üçün İR əməliyyat göstəricilərini ("operational metrics") nə dərəcədə izləyir?**

| | |
|---|---|
| Dəqiq müəyyən olunmuş məqsədlərlə davamlı təkmilləşdirmə prosesimiz vardır; ümumi müəssisə göstəricilərini qiymətləndirmək üçün İR ƏFG-lərindən ("KPİ") istifadə edirik. | 54,8% |
| Bəzi davamlı təkmilləşdirmə proseslərimiz və əməliyyat göstəricilərimiz vardır, lakin onların strukturu aydın deyil. | 19,4% |
| Qeyri-rəsmi davamlı təkmilləşdirmə proseslərimiz və əməliyyat göstəricilərimiz mövcuddur, lakin onlar dəqiq şəkildə formalaşdırılmamışdır. | 9,7% |
| İR funksiyası üçün davamlı təkmilləşdirmə prosesi və əməliyyat göstəriciləri yoxdur. | 16,1% |

**Nəticələrin təsviri:** Ümumi təşkilati performansı ölçmək üçün İR-ın əsas fəaliyyət göstəricilərinə istinad etdiyini vurğulayan (54.8%) sorğu iştirakçılarının əksəriyyəti şirkətdə təlim və inkişafın müəyyən edilməsini lazımi səviyyədə prioritetləşdirdiklərini bildirib.

# İnsan Kapitalı trendləri sorğusu

**Aşağıdakı mövzularla əlaqədar son 10 ildə müəssisənizin nailiyyətlərini necə qiymətləndirərdiniz?**




**Nəticələrin təsviri:** Təşkilatların əksəriyyətində istedad/inkişaf/karyera imkanları sahələrində, təşkilati strategiyalar, mədəniyyət/bağlılıq/təcrübə sahələrində olduğu kimi, son on ildə əhəmiyyətli artım müşahidə edilib.

**Şirkətiniz işəgötürən kimi öz brendini nə dərəcədə müəyyən etmiş və inkişaf etdirmişdir ?**




- İnkişaf etdirməmişdir: İşəgötürən kimi brendimizi idarə etmirik və ya inkişaf etdirməyə başlayırıq. Təşkilatı məqsədlərimizə nail olmaq üçün bizə lazım olan insan resursların cəlb edilməsində və saxlanılmasında çətinliklərlə üzləşirik.
- İnkişaf etdirmişdir: İşəgötürən kimi brendimizi fəal şəkildə idarə edirik və işçilər üçün dəqiq müəyyən olunmuş işçi dəyər təklifi (“employee value proposition”) vardır, lakin insan resurslarını cəlb etmək və saxlamaq bizim üçün çətindir.
- Yaxşı inkişaf etdirmişdir: Bizim işçilər üçün dəqiq müəyyən edilmiş və dəstəklənən işçi dəyər təklifi var və biz müəyyən insan resurları cəlb edib saxlaya bilirik.
- Çox yaxşı inkişaf etdirmişdir: İnsan resurslara bağlı artan tələblərə və işçi dəyər təklifinə cavab vermək üçün İşəgötürən olaraq brendimizi uyğunlaşdıra bilirik.

**Nəticələrin təsviri:** Sorğu iştirakçılarının təxminən 16%-i  işəgötürən brendini düzgün idarə etmədiklərinə inanır ki, bu da onların lazımi istedadı cəlb etmək və saxlamaqda çətinliklərlə üzləşməsinə səbəb olur.

# İnsan Kapitalı trendləri sorğusu

**İR şöbəsi insan resurslar davamçıların planlaşdırılması və idarə edilməsi təşəbbüslərində nə dərəcədə fəaldır?**




**Nəticələrin təsviri:** Nümayəndələri sorğuda iştirak etmiş əksər şirkətlərdə İR kifayət qədər fəal şəkildə ardıcıl planlaşdırma və idarəetmə təşəbbüsləri ilə məşğul olur (80.6%).

**Tendensiyalar:** Deloitte-un 2023 Qlobal İnsan Kapitalı Trendləri araşdırmasına əsasən, uğur qazanmaq üçün təşkilatlar və işçilər yeni qaydalar, yeni sərhədlər və yeni münasibətlər yaradaraq bu yeni dünyanı birlikdə yönləndirməyi öyrənməlidirlər.

**Müəssisənizdə son 10 il üzrə ən böyük dəyişiklik hansı istiqamətdə olmuşdur?**




**Tendensiyalar:** Deloitte Qlobal İnsan Kapitalı Trendləri sorğusunda olduğu kimi, texnologiyanın son on ildə təşkilatlarda dəyişikliklərin ən böyük səbəbi olduğu müəyyən edilmişdir. Qlobal sorğuya əsasən, texnologiya və insan kapitalın istifadəsi eyni dərəcədə əhəmiyyətlidir.



# İnsan Kapitalı trendləri sorğusu

**İR bu dəyişiklikləri təmin etməyə və dəstəkləməyə nə dərəcədə hazırdır?**




**Nəticələrin təsviri:** Sorğu iştirakçılarının təxminən yarısı dəyişikliklərin təmin edilməsi üçün artıq strategiyalarının olduğunu və yaxud transformasiya mərhələsində olduqlarını bildirsələr də digər yarısı bu dəyişikliklərə qismən təmin edildiyini və yaxud onların İR-a təsir göstərmədiyini vurğulayıb.

**Tendensiyalar:** Deloitte-un 2023 Qlobal İnsan Kapitalı Trendlərinə əsasən, təşkilatlar və işçilər əvvəlki fərziyyələrdən imtina etməlidir və geridə qoyduğumuz sabit, bölünmüş dünyadan daha çox dinamik, sərhədsiz dünya üçün yaradılmış yeni əsas prinsiplər toplusunu qəbul etməlidirlər.

**“Müəssisəmizin biznes ehtiyaclarına cavab vermək üçün zəruri olan bilik və səriştəli işçilər/namizədlər yetərlidir/əlçatandır” bəyanatı ilə nə dərəcədə razılaşırsınız və ya razılaşmırsınız?**




**Nəticələrin təsviri:** Sorğu iştirakçılarının 20%-i təşkilatlarının biznes ehtiyaclarını ödəmək üçün lazım olan bacarıqların və qabiliyyətlərin əlçatan olması ilə razılaşmır və işçilərinin 50%-dən çoxunun bacarıq və qabiliyyətlərinin növbəti illərdə təkmilləşdirilməsinin lazım olduğunu bildirir.

**İşçi heyətinizin təxminən neçə faizi növbəti 3 ildə öz bilik və bacarıqlarını dəyişməlidir?**




**Nəticələrin təsviri:** Sorğu iştirakçılarının 26%-i hesab edir ki, işçilərin 50%-dən çoxu növbəti üç il ərzində öz bacarıq və qabiliyyətlərini dəyişməlidir. Belə düşünən iştirakçılar həmçinin bildirmişlər ki, işçi qüvvəsinin inkişafını dəstəkləmək üçün proseslər və infrastruktur yoxdur və inkişaf ehtiyaclarının və prioritetlərinin müəyyən edilməsində problemlər mövcuddur.

# İnsan Kapitalı trendləri sorğusu

**İşçi qüvvəsinin inkişaf etdirilməsi üçün müəssisənizdə ən böyük maneələri nədə görürsünüz?**




**Nəticələrin təsviri:** Sorğu iştirakçılarının 33%-i hesab edir ki, onların təşkilatları qarşısında ən böyük maneə inkişaf ehtiyaclarını və prioritetlərini müəyyən etməkdə qarşılaşdıqları çətinlikdir, bu sorğu iştirakçıların əksəriyyəti 500-dən çox işçisi olan orta və böyük bizneslərdən ibarətdir. Nəqliyyat və Logistika sektorundan olan sorğu iştirakçılarının 20%-i maneənin işçi qüvvəsinə marağın olmaması səbəbindən yarandığını düşünür, və 17.8% işçi qüvvəsinin inkişafını dəstəkləmək üçün heç bir proses və infrastrukturun olmadığına inanır.

**Tendensiyalar:** Deloitte-un 2023 Qlobal İnsan Kapitalı Trendləri sorğu iştirakçıları bildirdilər ki, təşkilati nəticələrə nail olmaq üçün onların ən böyük maneəsi bir anda həddindən artıq çox dəyişikliklə üzləşməkdir. Lakin sərhədlərin ləğvi özünü tamamilə fərqli yollarla sübut etməyə hazır olan təşkilatlar və işçilər üçün yeni imkanlar yaradır. Bu, artıq bazardakı təşviqlərə keçmişin kateqoriyalarına və sərhədlərinə qarşı yeni strategiyalarla cavab verməmək deməkdir.

**Müəssisənizin rifah (“well-being”) strategiyasını ən yaxşı hansı fikir əks etdirir?**




**Nəticələrin təsviri:** Rifah strategiyası ilə bağlı ən çox rastlanılan fikir (38.7%) onun hərtərəfli olması və işin təşkili və işçilərin təcrübələrinin artırılması metodlarına inteqrasiya olunması yönündədir.

# İnsan Kapitalı trendləri sorğusu

**Müəssisənizdə işçi rifahına dəstək olmaq üçün əməliyyatlarda hansı yenidənqurmalar etmisiniz? Biz:**




**Nəticələrin təsviri:** Cavablara əsasən, texnologiyanın tətbiqi təşkilatda rifahı artırmaq üçün işi yenidən dizayn etməyin ən çox yayılmış yolu hesab olunur, işçilərə daha çox sərbəstlik vermək isə ən çox tətbiq olunan növbəti addımdır.

**Müəssisənizin mənsubluq ("sense of belonging") bacarıqlarına ən çox hansı amillər təsir edir?**




**Nəticələrin təsviri:** Sorğu iştirakçılarının təxminən 40%-i hesab edir ki, təşkilat mədəniyyəti təşkilata mənsubluq hissi yaratmaq üçün ən təsirli amildir.



# 03 Biznes gözləntilərinə dair sorğu



# Sorğu iştirakçılarının statistikası

## Sorğu iştirakçılarının fəaliyyət göstərdiyi əsas sektorlar






**Nəticələrin təsviri:** Sorğu iştirakçılarının əksər hissəsi Bank və Maliyyə xidmətləri sektorlarında çalışır (20%).

Sorğu iştirakçılarının ikinci böyük hissəsi hər biri 17.1% təşkil etməklə Neft, Qaz və Enerji və İnşaat sektorlarında fəaliyyət göstərir.

**Tendensiyalar:** Ötən ilki və bu ilki sorğu iştirakçıları arasında Bank və Maliyyə xidmətləri, Neft, Qaz və Enerji, Tikinti sektorları ən böyük paya malikdir.

## Sorğu iştirakçılarının illik gəliri (AZN)

**Nəticələrin təsviri:** 2022-ci ildə ümumi iştirakçıların əksəriyyəti 5 milyon manatdan az gəlir əldə etmiş şirkətlər təşkil edir, və onları 10-100 milyon manat və 1 milyard manatdan çox gəlir əldə etmiş şirkətlər izləyir.

**Tendensiyalar:** Keçən ildən fərqli olaraq bu il sorğu iştirakçılarının 17.1%-i də bir milyarddan artıq gəlir ələd etmiş şirkətlər təşkil edib.




## Sorğu iştirakçılarının fəaliyyət göstərdiyi şirkətin işçi sayı

**Nəticələrin təsviri:** Sorğu iştirakçılarının  49%-i 2022-ci ildə işçilərinin sayının 125-dən çox olduğunu, 31%-i isə 25-125 işçinin olduğunu bildirib.

**Tendensiyalar:** Ötən illə müqayisədə 125-dən çox işçisi olan şirkətlərin sayı isə 9 faiz bəndinə çoxalıb.



# Maliyyə perspektivləri və riskləri

**Qarşıdakı on iki ay ərzində müəssisəniz üçün əsas maliyyə və əməliyyat göstəricilərində hansı dəyişiklikləri gözləyirsiniz?**

**Gəlir, AZN**




**Əməliyyatlar üzrə xərclər, AZN**




**Nəticələrin təsviri:** Sorğu iştirakçılarının  45.7%-i 2023-ci il üçün gəlirlərdə orta dərəcədə artım olacağına inanır. Sorğuya qatılanların ikinci böyük hissəsi isə şirkət gəlirlərində əhəmiyyətli artım olacağına inanır.

**Tendensiyalar:** 2021-ci illə müqayisədə şirkətin illik gəlirində ciddi artım gözləyən sorğu iştirakçıları nisbəti bu il 20 faiz bəndi artaraq 37.1% təşkil edib.

**Nəticələrin təsviri:** Sorğu iştirakçılarının əksəriyyəti (54.3%) əməliyyat xərclərində orta səviyyədə artım gözləyir. Sorğu iştirakçılarının dörddə birindən çoxu əməliyyat xərclərinin eyni qalacağını düşünür.

**Əməliyyatlar üzrə mənfəətlər, AZN**




**Kapitalın dəyəri, AZN**




**Nəticələrin təsviri:** Sorğu iştirakçılarının 45.7%-i 2023-cü il üçün gəlirlərdə orta dərəcədə artım olacağına inanır. Sorğuya qatılanların ikinci böyük hissəsi isə şirkət gəlirlərində əhəmiyyətli artım olacağına inanır.

**Nəticələrin təsviri:** Sorğu iştirakçılarının demək olar ki yarısı 2023-cü ildə kapitalın dəyərində dəyişiklik gözləmir.

**İşçilərin sayı**




**Orta əməkhaqqı**




**Nəticələrin təsviri:** Sorğu iştirakçılarının təxminən yarısı (46%) şirkət işçilərinin sayının artacağını, 37%-i isə işçilərin sayı baxımından hər hansı dəyişikliyin olmayacağını gözləyir.

**Nəticələrin təsviri:** Sorğu iştirakçılarının əksəriyyəti (62.9%) maaşların orta dərəcədə artacağını düşünür.

# Maliyyə perspektivləri və riskləri

**Şirkətinizdə strateji qərarların qəbulu baxımından siyasi və iqtisadi qeyri-müəyyənliyi necə qiymətləndirirsiniz?**




**Nəticələrin təsviri:** Respondentlərin 48.6%-i strateji qərarların qəbulu baxımından siyasi və iqtisadi qeyri-müəyyənliyin orta səviyyədə olduğunu, 8.6%-i isə qeyri-müəyyənlik səviyyələrinin çox aşağı olduğunu bildirib.

**Müəssisənizin balans hesabatına təsir edə biləcək riskli qərarlar qəbul etmək üçün indi uyğun bir zamandır?**




**Nəticələrin təsviri:** Respondentlərin əksəriyyəti (57.1%) qeyd edir ki, indi balans hesabatına təsir edə biləcək riskli qərarlar qəbul etmək üçün uyğun bir vaxt deyil.

**Aşağıda sadalanan risklərin növbəti on iki ay ərzində müəssisənizə təsirini qiymətləndirməyiniz xahiş olunur.**

**Inflyasiya və digər iqtisadi risklər**




**Nəticələrin təsviri:** Sorğu iştirakçılarının 48.6%-i inflyasiyanın və digər iqtisadi risklərin təsirini güclü və 40%-i orta dərəcədə qiymətləndirib.

**Maliyyələşdirmə ilə bağlı çətinliklər**




**Nəticələrin təsviri:** Müvafiq olaraq sorğu iştirakçılarının 42.9% və 40%-i maliyyə məsələlərinin müəssisəyə güclü və orta dərəcədə təsir göstərəcəyini proqnozlaşdırıb.

**Tələbin azalması**




**Nəticələrin təsviri:** Sorğuda iştirak edənlərin 42.9%-i tələbin azalmasının biznesə ciddi təsir göstərəcəyini bildirib, bu da əvvəlki illə müqayisədə demək olar ki 3 faiz bəndi daha azdır.

**Tədarük zənciri ilə bağlı çətinliklər**




**Nəticələrin təsviri:** Sorğuda iştirak edənlərin əksəriyyətinin cavablarına görə tədarükçü çatışmazlığı orta səviyyəli risk kimi qiymətləndirilə bilər. Digər əhəmiyyətli faizi (34.3%) bunun şirkətə güclü təsir göstərə biləcəyini düşünür.

**Pandemiyalar**




**Milli valyutanın devalvasiyası**



# Maliyyə perspektivləri və riskləri

**Aşağıda sadalanan risklərin növbəti on iki ay ərzində müəssisənizə təsirini qiymətləndirməyiniz xahiş olunur.**

### Azərbaycandakı müəssisələr üçün dövlət tənzimləməsinin artırılması




### Geosiyasi risklər




**Nəticələrin təsviri:** Sorğuda iştirak edənlərin yarıdan çoxu (57.1%) Azərbaycandakı dövlət tənzimləməsinin artırılmasının şirkətlərinə orta dərəcədə risk təşkil edəcəyini bildirib.

**Nəticələrin təsviri:** Sorğuda iştirak edənlərin 54.3%-i geosiyasi risklərin şirkətlərinə orta dərəcədə təsir edəcəyini, 22.9%-i isə təsirin yüksək olacağını bildirib.

### Nağd pul axınının azalması




### İstehsal xərclərində artım




### Kiber təhlükələr




### Əsas biznes gəlirlərinin azalması




**Nəticələrin təsviri:** Sorğuda iştirak edənlərin demək olar ki yarısı kiber təhlükələrin onların şirkətlərinə orta dərəcədə təsir göstərə biləcəyini düşünür.

**Nəticələrin təsviri:** Sorğuda iştirak edənlərin müvafiq olaraq 48.6%-i və 31.4%-i əsas biznes gəlirlərindəki azalmanın güclü və orta təsir göstərəcəyini proqnozlaşdırıb.

### 2022-ci ildə müəssisəniz işçi qüvvəsi ilə bağlı hansı qərarları qəbul etmişdir?




**Nəticələrin təsviri:** Sorğuda iştirak edənlərin 40% faizi şirkətlərinin 2022-ci ildə tam və ya yarımştat işçiləri işə götürdüyünü bildirsə də, digər əksəriyyəti iş yerlərində verilən işçi qüvvəsi qərarlarında heç bir dəyişiklik olmadığını bildirib.

# Bazar mühiti

**Azərbaycanın qeyri-neft sektorunun qarşıdakı beş il içərisində ən sürətli böyümə əldə edəcək əsas sahəsini seçməyiniz xahiş olunur.**




**Nəticələrin təsviri:** Ən yüksək artım gözləntilərinə malik iki sektor Kənd Təsərrüfatı (42.9%), Nəqliyyat və Logistika sektorlardır (14.3%). Üçüncü yerdə isə 11.4% ilə Turizm və Yaşayış xidmətləri və İstehsal sektoru təşkil edir.

**Tendensiyalar:** Bu il 2021-ci ildə olduğu kimi növbəti beş il ərzində ilk ən sürətlə genişlənən sənayenin, keçən ildən 6.9 faiz bəndi artımla, kənd təsərrüfatı olacağı gözlənilir.

**Azərbaycan iqtisadiyyatının böyüməsinə mane ola biləcək məsələləri qiymətləndirməyiniz xahiş olunur.**




**Nəticələrin təsviri:** Sorğuda iştirak edənlərin 65.7%-i hesab edir ki, qanunvericilik mühiti ilə bağlı çətinliklər Azərbaycan iqtisadiyyatının inkişafına ən çox mane olan faktordur. Sorğuya əsasən Azərbaycanın qeyri-neft sektorunda xarici investorların (57.1%) və ixtisaslı kadrların çatışmazlığı (48.6%) ölkə iqtisadiyyatına ən çox mane ola biləcək növbəti faktorlardır.

**Tendensiyalar:** Ötən ildə olduğu kimi 2022-ci ildə də cari bazar rəqabətliliyinin şərtləri, ixtisaslı işçi qüvvəsinin çatışmazlığı və qanunvericilik mühiti ilə bağlı çətinlikləri ölkə iqtisadiyyatına manə olan əsas faktorlardır.

**Azərbaycanın qeyri-neft sektorunu dəstəkləmək və inkişaf etdirmək üçün dövlət proqramlarının təsirini qiymətləndirməyiniz xahiş olunur.**




**Nəticələrin təsviri:** Sorğu iştirakçılarının əksəriyyəti (71.4%) hesab edir ki, dövlətin dəstək mexanizmləri Azərbaycanın qeyri-neft sektorunun genişləndirilməsində kifayət qədər səmərəlidir.

**Tendensiyalar:** Dövlətin dəstək mexanizmlərinin orta hesabla effektiv olduğunu düşünənlərin göstəricisi 2021-ci ilə nisbətən 16.4 faiz bəndi qədər artıb.

# Əlaqələr



**Nuran Kərimov**
**İdarəedici Partnyor**
Deloitte Azərbaycan
nkerimov@deloitte.az



**Tural Hacıyev**
**Partnyor**
Risk üzrə Məsləhət xidmətləri
Deloitte Azərbaycan
thajiyev@deloitte.az



**Ülvi Qasımov**
**Menecer**
Risk üzrə Məsləhət xidmətləri
Deloitte Azərbaycan
ugasimov@deloitte.az



**Nərgiz Ibrahimova**
**Baş Menecer**
Risk üzrə Məsləhət xidmətləri
Deloitte Azərbaycan
nibrahimova@deloitte.az

# Təşəkkürlər

**Hazırlayanlar:** Tural Hacıyev, Aslan Ibrahimov, Ülvi Qasımov, Nərgiz Ibrahimova, Ramina Kavkazi, Leyla Hacıbəyli, Mayis Qabulov, Kamal Xudaverdiyev, Fidan Qasımzadə, Nigar Qaziyeva, Inci Məmmədli, Aslı Sipahi, Şahin Güler, Kübra Taşkın.

Deloitte.

www.deloitte.az

Deloitte adı Deloitte Touche Tohmatsu Limited ("DTTL") şəbəkəsinə daxil olan üzv şirkətlərdən birinə və ya bir neçəsinə, onun üzv şirkətlərdən ibarət qlobal şəbəkəsinə və əlaqədar müəssisələrinə (birlikdə "Deloitte təşkilatı") aid ola bilər. DTTL (həmçinin "Deloitte Qlobal") və bu şəbəkəyə daxil olan hər bir üzv şirkət ayrı-ayrılıqda hüquqi şəxslər və müstəqil müəssisələrdir və bir-biriləri qarşısında üçüncü tərəflərlə bağlı hər hansı öhdəlik daşımırlar. DTTL və onun üzvü olan hər bir şirkət və əlaqədar müəssisə bir-birinin deyil, yalnız öz hərəkət və səhvləri üçün məsuliyyət daşıyırlar. DTTL müştərilərə xidmətlər göstərmir. Ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

Deloitte Fortune Global 500® üzrə şirkətlərin təxminən 90% hissəsinə və minlərlə özəl şirkətlərə audit və əminlik, vergi və hüquq, konsaltinq, maliyyə, risk üzrə qabaqcıl məsləhət xidmətləri göstərir. Peşəkar mütəxəssislərimiz kapital bazarlarına ictimai etimadı möhkəmləndirməyə, müştərilərə dəyişərək inkişaf etməyə imkan verən nəzərəçarpan və davamlı nəticələrə nail olur, habelə daha güclü iqtisadiyyata, daha ədalətli cəmiyyətə və daha dayanıqlı dünyaya yol açır. 175 ildən çox tarixi olan Deloitte 150-dən çox ölkədə və ərazidə öz xidmətlərini təqdim edir. Deloitte-un təxminən 415,000 peşəkar mütəxəssisinin təklif etdiyi fərq yaradan həllər haqqında ətraflı məlumat üçün www.deloitte.com səhifəsinə daxil olun.

Bu məlumatda yalnız ümumi informasiya əks olunur və Deloitte Touche Tohmatsu Limited ("DTTL") şirkətlərindən, onun üzv şirkətlərindən və ya əlaqədar müəssisələrdən (birlikdə "Deloitte Şəbəkəsi") hər hansı biri bu məlumat vasitəsilə peşəkar məsləhətləşmə və ya xidmətlər təmin etmir. Maliyyə fəaliyyətinizə və ya müəssisənizə təsir göstərə biləcək hər hansı qərarlar qəbul etməzdən və ya tədbirlər görməzdən əvvəl peşəkar mütəxəssis ilə məsləhətləşmək daha məqsədəuyğundur.

Bu məlumatda əks olunan informasiyanın düzgünlüyü və ya tamlığı ilə bağlı hər hansı bəyanat, zəmanət və ya öhdəlik (açıq və ya nəzərdə tutulmuş şəkildə) verilmir və DTTL, üzv şirkətlər, əlaqədar müəssisələr, işçilər və ya nümayəndələrdən heç biri bu məlumata istinad edən hər hansı şəxslə bağlı birbaşa və ya dolayısı ilə yaranan zərərə görə məsuliyyət daşımır. DTTL və bu şəbəkəyə daxil olan hər bir üzv şirkət və əlaqədar müəssisələr ayrı-ayrılıqda hüquqi şəxslər və müstəqil müəssisələrdir.

© 2023. Məlumat üçün Deloitte Touche Tohmatsu Limited şəbəkəsinin üzvü Deloitte Türkiyə ilə əlaqə yarada bilərsiniz.

**"Best Managed Companies Azerbaijan" (Azərbaycanın Ən Yaxşı İdarə Olunan Şirkətləri)müsabiqəsi haqqında**

The Best Managed Companies müsabiqəsi yüksək biznes fəaliyyəti ilə fərqlənən şirkətləri cəmiyyətə tanıtmaq üçün işlənib hazırlanmışdır.

Proqram zamanı həyata keçirilən dəqiq və müstəqil qiymətləndirmə prosedurları bu müsabiqəyə cəlb edilmiş şirkətlərin qəbul olunmuş beynəlxalq standartlar çərçivəsində dəyərəndirilməsinə təminat verir. Şirkətlərin idarəedilməsi dörd meyar əsasında dəyərləndirilir: strategiya, insan kapitalının inkişafı, öhdəlik və maliyyə göstəriciləri.

Əlavə məlumat üçün www.bestmanagedcompanies.az internet səhifəsinə daxil olun.

AZERBAIJAN BEST MANAGED COMPANIES